**Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2016-cı il martın 8-də Bakı şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 aprel tarixli 882 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın yaradılması haqqında Saziş"ə əsasən **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

| | |
|---|---|
| Kəmaləddin Heydərov | - Azərbaycan Respublikasının fövqəladə hallar naziri |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| İlqar Fətizadə | - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini |
| Vaqif Əliyev | - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin birinci müavini |
| Xələf Xələfov | - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Sahil Babayev | - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini |
| Firudin Qurbanov | - Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| Natiq Abbasov | - Azərbaycan Respublikası energetika nazirinin müavini |
| Seyfəddin Talıbov | - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini |
| Səfər Mehdiyev | - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini |
| Elşad Nəsirov | - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti |
| Tofiq Abdullayev | - Azərbaycan Respublikasının Qətər Dövlətində fövqəladə və səlahiyyətli səfiri |

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Qətər Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyun 2016-cı il
2125